# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

*Ərzaq təhlükəsizliyi prioritet məsələlərdəndir və bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir. Növbəti illərdə isə daha böyük nəticələr gözlənilir.*

*İlham ƏLİYEV.*

(Əvvəli 8-ci səhifədə).

Eyni zamanda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı axtarışlar və radikal dini cərəyanların üzvləri ətrafında müvafiq tədbirlər həyata keçirilmişdir.

Rayonda əhali arasında tolerantlığın, multikultural dəyərlərin qorunması və dini ayinlərin qanunlara uyğun icrası nəzarətdə saxlanılır. Mövcud 46 məsciddə bu gün dövlət qeydiyyatından keçmiş 22 islam, udi-xiristian pravoslav kilsəsində 1 xiristian dini icması fəaliyyət göstərir. İcmalar “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq fəaliyyət göstərirlər.

Rayonumuzda yaşayan müxtəlif millət və xalqların nümayəndələri, eyni zamanda etnik qruplar öz adət-ənənələrinin, milli mədəniyyətlərinin, dillərinin qorunması, inkişaf etdirilməsi istiqamətində fəal mövqe nümayiş etdirir, biri-digərinə bərabər hüquqlu vətəndaş kimi qarşılıqlı hörmət bəsləyir. Həyata keçirilən abadlıq-quruculuq işləri eyni templə milli azlıqların yaşadığı qəsəbə və kəndləri də əhatə edir.

**Hörmətli tədbir iştirakçıları!**

Prezident cənab İlham Əliyev öz çıxışlarında ölkə iqtisadiyyatının əsas inkişaf prioritetinin qeyri-neft sektorunun inkişafı və ixrac yönümlü məhsulların istehsalının daha da artırılması olduğunu qeyd etmişdir. Bildiyiniz kimi qeyri-neft sektoru sahələri arasında kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı əsas yerlərdən birini tutur.

Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Şübhəsiz ki, əldə olunan uğurların əsasında düşünülmüş siyasət, cəsarətli və fədakar fəaliyyət dayanır. Bu sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına yardımların verilməsini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezidentin həmin sərəncamı kənd təsərrüfatı məhsulları istehsalçılarına böyük stimul vermişdir. Bunun nəticəsidir ki, rayonumuzun kənd təsərrüfatı sahəsində əhəmiyyətli dəyişikliklər hiss edilir.

Həmin sərəncamın rayonda icrası ilə əlaqədar cari ildə 5969 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 15442 hektar əkin sahəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına 1.186.490 manat yardım hesablanmışdır. Həmin vəsait plastik kartlar vasitəsi ilə məhsul istehsalşılarına çatdırılmışdır. Bundan əlavə güzəştli qaydalarla 358 nəfərə 3230 ton mineral gübrə, 450 nəfərə isə 1320 litr pestisid verilmişdir.

Taxılçılıq rayonumuzun iqtisadiyyatında mühüm rol oynayır. 2017-ci ildə rayonda 67917 ton taxıl istehsal olunmuşdur. Hər hektardan orta məhsuldarlıq 32,1 sentner təşkil etmişdir. 2018-cı ilin məhsulu üçün 2017-ci ilin payızında rayonda 20100 hektar sahədə payızlıq taxıl əkilmişdir. Əkinin 14600 hektarını buğda, 5500 hektarını isə arpa sahələri təşkil edir.

Kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən keçən il 12260 ton kartof, 7601 ton tərəvəz, 3065 ton qarğıdalı, 116 ton bostan məhsulları istehsal olunmuşdur.

Hazırda rayonda 6854 hektar meyvə bağları, 509 hektar üzüm plantasiyaları mövcuddur. Həmin bağlardan 13527 ton meyvə, 2065 ton üzüm yığılmışdır. İqtisadi səmərəliliyi nəzərə alınaraq meyvə və üzüm bağlarının daha da genişlənməsi nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, son illər rayonumuzda kənd təsərrüfatı bitkilərinin əkinində müəyyən dəyişiklik aparılıb. Belə ki, heyvandarlığın inkişafını nəzərə alaraq yemə olan tələbatın ödənməsi üçün taxıl sahələri 1500 hektara qədər azaldılmış və həmin sahələrdə yem bitkiləri əkilmişdir. Bundan əlavə ilk dəfə olaraq digər ərzaq bitkilərinin əkinləri aparılmışdır. Belə ki, 2017 ci ildə 16,5 hektar sahədə qarabaşaq, 20 hektar sahədə şəkər cuğunduru və 1 hektar sahədə çəltik əkilmişdir. Həmin sahələrdən 27,2 ton qarabaşaq və 2,5 ton çəltik və 195 ton şəkər çuğunduru istehsal olunmuşdur. Fermerlərimiz mütərəqqi metodlar tətbiq etməklə əkin sahələrində məhsuldarlığın çoxaldılmasına diqqəti artırmışlar.



Cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. Xüsusilə ixracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 2442 saylı Sərəncamına əsasən fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi fermerlərimiz üçün stimul yaratmış və bu sahədə rayonumuzda müəyyən işlər görülmüşdür.

Belə ki, fındıqçılığın inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda 2016-cı ilin payızından etibarən əlavə 2000 hektar fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Bu günə qədər 1217 hektar yeni fındıq bağları salınmışdır.

Keçən il uzun fasilədən sonra rayonumuzda barama və tütün istehsalına başlanılmışdır. 55 nəfər kümçü tərəfindən 2017-ci ildə 2758 kq barama istehsal olunmuşdur. Barama istehsalının artırılması məqsədi ilə 2016-cı ilin payızından etibarən Çin Xalq Respublikasından və İran İslam Respublikasından 160 min ədəd tut tingləri gətirilərək əkilmişdir ki, bu da gələcəkdə bizə barama istehsalının artırılmasına şərait yaradacaqdır.

Eləcə də ötən il 70 ha sahədə tütün əkilərək istehsalçılar tərəfindən, 97 ton quru tütün təhvil verilmişdir. Növbəti illərdə tütün istehsalının artırılmasını nəzərə alaraq rayonda tütün qəbulu və tütünqurutma məntəqəsinin də yaradılması qarşıya məqsəd qoyulmuşdur.

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. 2017-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinin laboratoriyasına gətirilmiş müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları yoxlanılmış və onlara müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 4 özəl toxumçuluq təsərrüfatının yetişdirdiyi toxumluq əkin sahələrində abrobasiya aparılaraq orta məhsuldarlıq müəyyən edilmişdir. Biçilmiş toxumluq sahələrinin məhsuldarlığı 35-40 sentner olmaqla, 2300 tondan artıq toxum istehsal olunmuş, əlavə olaraq digər bölgələrdən 50 tondan artıq yüksək reproduksiyalı elit toxum gətirilmişdir.

Kənd təsərrüfatı idarəsi tərəfindən torpaq sahibləri arasında, pay torpaqlarının könüllülük prinsipi əsasında birləşdirilərək iri təsərrüfatların yaradılması istiqamətində təbliğat işləri aparılır. Belə təsərrüfatların yaradılması iqtisadi cəhətdən səmərəli olmaqla təsərrüfatda bütün aqrotexniki qaydalara riayət olunması üçün şərait yaranır.

Rayondakı tingçilik təsərrüfatında 9 hektar yeni fındıq bağı salınmışdır. Təsərrüfatda 3250 ədəd tut tingi yetişdirilmiş, 9 ton fındıq, 400 kq alça, 28,5 ton taxıl istehsal edilmişdir.



*Aqrar sektor iqtisadiyyatımızın prioritet sahəsidir.*

(Ardı 10-cu səhifədə).